# Azərbaycan ilə Misir arasında müdafiə sənayesi üzrə əməkdaşlıq məsələləri müzakirə edilib

Müdafiə sənayesi naziri Yavər Camalov Azərbaycanda səfərdə olan Misir Ərəb Respublikası Müdafiə Nazirliyinin Sərhəd Qoşunlarının komandanı, general-mayor Əhməd İbrahim Məhəmməd İbrahiminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyinin (MSN) mətbuat xidmətindən bildiriblər ki, nazir nümayəndə heyətinə qurumun fəaliyyəti ilə bağlı məlumat verib.

Görüşdə Azərbaycan ilə Misir arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. Misirin Azərbaycandakı səfiri xanım Suzanne Mohamed Gamil də görüşdə iştirak edib.



Səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Sənayesi Nazirliyinin bir neçə müəssisəsində olub və istehsal prosesini izləyib.

**AZƏRTAC**